AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI



# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

13 oktyabr 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 40 (3603)

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QIRĞIZISTANA DÖVLƏT SƏFƏRİ



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də Qırğız Respublikasına dövlət səfərinə gedib.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Bişkek şəhərinin "Manas" Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Hava limanında dövlətimizin başçısını Qırğızıstan Prezidenti Sadır Japarov qarşılayıb.

Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bişkekdə "Ata-Beyit" Milli Tarixi-Memorial Kompleksini ziyarət edib.

Oktyabrın 11-də Bişkekdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycanla Qırğızıstan arasında Birinci Dövlətlərarası Şuranın geniş tərkibdə iclası keçirilib.

Şuranın geniş tərkibdə iclası başa çatdıqdan sonra Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimi olub.

Dövlət başçıları mətbuata bəyanatlarla çıxış etdikdən sonra Azərbaycanla Qırğızıstan arasında Birinci Dövlətlərarası Şuranın məhdud tərkibdə iclası keçirilib.

Həmin gün Bişkekdə Qırğızıstan-Azərbaycan Dostluq Parkının açılışı olub.

Parkın açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov iştirak ediblər.

Əvvəlcə dövlət başçıları parkın açılışını bildirən lenti kəsiblər. Prezidentlər tədbirdə çıxış ediblər.

Oktyabrın 11-də Qırğız Respublikasının Prezidenti Sadır Japarovun adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil edilib.

Qırğızıstan Prezidenti Sadır Japarov Ulu Öndər Heydər Əliyevlə bağlı fotoalbomu dövlətimizin başçısına təqdim edib.

Oktyabrın 12-də Bişkekdə Heydər Əliyev adına 20 saylı Məktəb-Gimnaziya təhsil-tərbiyə kompleksinin və Nizami Gəncəvi adına 103 saylı məktəbin açılışı olub.

Dövlət başçıları açılış mərasimlərində çıxış ediblər.

Həmin gün Bişkekdəki "Ala-Arça" Dövlət Təbiət Parkında mədəni proqram olub. Hər iki dövlətin Prezidentləri tədbirdə iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına dövlət səfəri oktyabrın 12-də başa çatıb.

## Rəsmi xronika

***Oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə rəsmi səfərə gələn Moldova Respublikasının Baş naziri Nataliya Qavrilitsa ilə təkbətək görüşü olub.***

***Oktyabrın 10-da dövlətimizin başçısı Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Fergus Auldun etimadnaməsini qəbul edib.***

***Oktyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev İspaniya Krallığının milli bayramı münasibətilə Kral Əlahəzrət VI Felipeyə təbrik məktubu ünvanlayıb.***




Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il oktyabr ayının 27-də Bərdə Rayon Polis Şöbəsinin inzibati binasında Bərdə, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd, Goranboy, Xocalı, Naftalan şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 26.10.2022-ci il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

## SIRAMIZA GƏNCLƏR QOŞULUR

### *Polis olmaq istəyənlərin növbəti sıra baxışı keçirilib*

Oktyabrın 11-də Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Nazir şəxsən onlayn qaydada müraciət etmiş hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb. Əvvəlcədən elan olunmuş tələblərə uyğun olan 337 nəfər seçilərək seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 62 nəfəri Vətən müharibəsinin iştirakçısı, 1 nəfəri isə şəhid ailəsinin üzvü olub.





Sonda çıxış edən daxili işlər naziri V.Eyvazov xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini qeyd edərək seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# XƏTAİ RMİ-də BİR GÜN...

***Səhər saat 8-də, günəş parlaq şəfəqlərini Bakının səmasına yenicə səpələdiyi vaxtda Xətai Rayon Mühafizə İdarəsinin inzibati binasının həyətində əməkdaşlar səhər təlimatına düzülmüşdü. Dənizdən əsən sərin meh binanın qarşısındakı dirəkdə asılmış bayrağımızı, görkəmli türk şairi Akif Ərsoyun təbirincə desək, "şəfəqlərdə üzən bu sancağı" dalğalandırdıqca, onun bir kərə enməməsi üçün Azərbaycan Polisinin tarixi fədakarlıqlarını gözlər önündə canlandırırdı.***



Şəxsi heyətin təlimata hazır olması barədə İdarə rəisi, polis polkovniki Nazim Həsənova rəis müavini, polis polkovnik-leytenantı İlham Rzayevin məruzəsindən sonra əməkdaşların Dövlət himnini ifa etməsi və təntənəli marşla keçidi dövlətə xidmət etmənin anlamlı peyzajını tamamlayırdı sanki.

Təlimatda İdarə rəisi kolonların önündən keçərək əməkdaşların zahiri görkəminə baxış keçirdi, geyim qaydalarını yoxladı, irad və tövsiyələrini bildirdi, ümumən isə nəticədən razı qaldığını dedi. Bundan sonra əməkdaşlar təhkim olunduqları postlara yola düşdülər.

Bir qrup isə idman məşğələsi çərçivəsində turnikdə dartınır, müəyyən edilmiş normativləri yerinə yetirirdi. Elə burada öyrənirik ki, onların arasında dəfələrlə həm dünya, həm də Avropa çempionu olan tanınmış idmançılar var.

Onlardan biri, ömrünün 23 ilini peşəkar uşu-sanda və kikboksinq idman növünə həsr edən Elvin Əhmədli dörd dəfə dünya, beş dəfə Avropa çempionu olub. O, həm də Dünya kəmərinin sahibidir. 2016-cı ildə hərbi xidmətdə olarkən ən yeni tariximizə "Aprel döyüşləri" kimi düşən hərbi əməliyyatlarda iştirak edib. Hərbi xidmətdən qayıtdıqdan sonra Ukraynada peşəkarlar arasında keçirilən yarışda Azərbaycan daxili işlər orqanlarının təmsilçisi kimi uşu-sanda üzrə dünya çempionu adını qazanıb. Ondan əvvəl Honkonqda keçirilən yarışdan da qızıl medalla döndüyünə görə dövlət başçısı tərəfindən xüsusi qaydada mükafatlandırılıb. Hazırda xidməti vəzifələrini icra etməklə yanaşı, mart ayında Tailandda keçiriləcək peşəkar yarışa hazırlaşır.

2014-cü ildən daxili işlər orqanlarında qüsursuz xidmət edən polis baş serjantı Elbəyi Osmanov da Azərbaycan, Avropa və MDB ölkələri arasında ciu-citsu üzrə keçirilən yarışlardan çempion kimi ayrılıb. Dünya çempionatının mükafatçısı, eyni zamanda, bodibildinqlə məşğuldur. Deyir, onlara rəhbərlik tərəfindən yarışlara hazırlaşmaq üçün bütün lazımi şərait yaradılır. Məşqlərdə aldığı zədələrdən sonra yarışlara fasilə versə də, sağlığına qovuşandan sonra yenidən tatami üzərinə qayıdacaq. Hələliksə, daxili işlər orqanları arasında keçirilən parkur yarışlarında idarənin komandasını təmsil etməklə kifayətlənir.

Xidmətin təşkili ilə bağlı gələn zənglərə cavab verən bölük komandiri, polis mayoru Tərlan Əhmədov arada-bir söhbətimizə müdaxilə edib ətraflı məlumat almağımıza da yardımçı olmağa çalışırdı. Onun sözlərinə görə, idarənin komandası ilk dəfə bu il daxili işlər orqanlarının əməkdaşları arasında keçirilən parkur yarışlarına qatılıb. Komandanın çıxışını uğurlu saymaq olar, ancaq istənilən nəticəni sonrakı yarışlarda əldə edəcəklərinə inanırlar. Çünki, DİN və Baş İdarə rəhbərliyinin göstərişinə uyğun olaraq, şəxsi heyətin xüsusi təlimi, xidməti, fiziki və döyüş hazırlığının daha da yüksəldilməsi məqsədilə mütəmadi məşğələlərə cəlb edilirlər.

Bu arada xəbər aldıq ki, İdarə rəisi dövlət başçısının sərəncamı ilə təltif edilmiş və sıralarımıza yeni qoşulan Vətən müharibəsinin iştirakçısı iki yeni əməkdaşı qəbul edəcək. Fürsəti fövtə vermədik, özümüzü çatdırdıq "hadisə" yerinə.

Polis polkovniki İkinci Qarabağ müharibəsində ordumuzun Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın azad edilməsindən, hərbçilərimizin qəhrəmanlıqlarından danışdı, müharibə iştirakçılarına göstərilən diqqət və qayğıdan bəhs etdi. Bu döyüşlərə qatılmış gənc əməkdaşların - polis kiçik serjantı Həsən Dadaşlı və mülki mühafizəçi Rəhim Yaradanquliyevin mühafizə etdikləri postlarda da eyni əzmi, qətiyyəti göstərəcəklərinə əmin olduğunu bildirdi. Məlumat verildi ki, H.Dadaşlı cəbhənin Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı, mülki mühafizəçi R.Yaradanquliyev isə Kəlbəcərin azad edilməsində iştirak edib.



Biz yenidən bölük komandiri ilə söhbətimizə qayıtdıq. Hesabat dövrünün göstəriciləri barədə danışan polis mayoru bildirdi ki, Xətai Rayon Mühafizə İdarəsi tərəfindən cari ilin 1 oktyabr tarixinə qədər mühafizə olunan obyektlərin sayı 1045, o cümlədən 513 mənzil təşkil edir. Onlardan 22 obyekt stasionar polis, 24 mülkü mühafizə xidməti, 6 qarışıq xidmət, ümumilikdə isə 993 obyekt Mərkəzi Mühafizə Məntəqəsi vasitəsilə qorunur.

Onun sözlərinə görə, yeni obyekt və mənzillərin mühafizəyə cəlb edilməsi istiqamətində müvafiq tədbirlərə də ara verilmir. Bunun nəticəsidir ki, hesabat dövründə 100 obyekt, o cümlədən 23 mənzil siqnalizasiya sistemi vasitəsi ilə təchiz edilərək mühafizəyə qəbul olunub.

Bundan başqa, idarənin əməkdaşları cinayətkarlığa və digər hüquqpozmalara qarşı mübarizədə fəal iştirak edirlər. Belə ki, şəxsi heyət tərəfindən xidməti post və marşrutlarda 7 fakt üzrə oğurluğun, 1 yanğın hadisəsinin qarşısı alınıb, digər cinayət hadisəsi törədən 2 nəfər, ictimai qaydanı pozan 6, narkotik maddə ilə 1 nəfər şübhəli şəxs qismində saxlanılaraq ərazi üzrə polis bölmələrinə təhvil verilib.

Bu rəqəmlər, bir növ, tutucu qruplarının "güzgüsüdür". Çünki, taqım komandiri, polis baş leytenantı Emin Ələkbərovun dediyi kimi, mühafizə xidmətinin "bel-sütununu" onlar təşkil edir. Xidmətin keyfiyyəti həm də məhz onların çevikliyindən asılıdır. Xətai RMİ-nin tutucu qrupları da bu baxımdan peşəkar əməkdaşlardan ibarətdir, onlar lazımi texniki avadanlıq və nəqliyyat vasitəsilə təmin olunublar.

Günün sonuna doğru yenidən toplanış oldu, axşam növbəsinin təlimatı başlayırdı. Xidməti silahlarını və kitabçalarını Növbətçi Hissəyə təhvil verənləri yenilərin əvəz etməsi polisin gecəli-gündüzlü xidmətinin real tablosu kimi idarənin həyətindən "asılmışdı".

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Veteranlar hesabat verdi

DİN Veteranlar Şurası daxili işlər orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı cari ilin 9 ayı ərzində gördüyü işlərə dair hesabat verib.

Şura işini DİN-in aidiyyəti əmr, göstəriş və digər normativ-hüquqi sənədləri əsasında quraraq bir sıra səmərəli tədbirlər həyata keçirib. Belə ki, ictimai təhlükəsizliyin təmin edilməsində, hüquq pozuntularının profilaktikasında, əməliyyat-axtarış tədbirlərinin planlaşdırılmasında, şəxsi heyətin təlim-tərbiyəsində, eləcə də əhali arasında hüquqi biliklərin təbliğində veteranların təcrübəsindən geniş və səmərəli istifadə olunub.

DİN Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki Fərhad Süleymanov qəzetimizə bildirib ki, 2022-ci ilin 9 ayı ərzində veteranların köməyi ilə ümumilikdə 7126 cinayət işinin açılması təmin edilib. Narkomaniya ilə mübarizə çərçivəsində veteranlar respublika üzrə 1845 məktəbdə maarifləndirici görüşlər keçiriblər. Görüşlərdə, həmçinin 10-11-ci sinif şagirdlərinə Polis Akademiyasında tədris-təlim prosesinin təşkili, maddi-texniki bazası, eləcə də yaradılan şərait barədə ətraflı məlumat verilib.

Daxili işlər orqanlarında qanunun aliliyinin təmin olunmasında, gənc əməkdaşların dövlətə və dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunmasında yaxından iştirak edən veteranların müxtəlif mükafatlarla təltif olunduğunu deyən Şura sədri bu istiqamətdə həyata keçirilən tədbirlərin davam etdirildiyini, eyni zamanda respublikanın kütləvi informasiya vasitələrində, radio, televiziya, xəbər saytlarında və qəzetlərdə geniş işıqlandırıldığını da diqqətə çatdırıb.

*Teymur Əlizadə,*
*polis mayoru*



# Estafet gənclərindir...

Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviqlə bağlı yuxarı sinif şagirdləri ilə keçirilən silsilə tədbirlər Balakən, Zaqatala, Qax və Masallı rayonlarında davam etdirilib.

Keçirilən görüşlərdə DİN-in Polis Akademiyasının müəllimləri, müvafiq Rayon Polis şöbələrinin şəxsi heyət üzrə köməkçiləri, polis veteranları və gənc əməkdaşlar iştirak edib.

Tədbirlərdə çıxış edən Akademiyanın bölmə rəisi, polis polkovnik-leytenantı Elçin Orucov və Əməliyyat-axtarış fəaliyyəti kafedrasının baş müəllimi, polis polkovnik-leytenantı Orxan Məmmədov ali təhsil almaq arzusunda olan abituriyentlərə təhsil ocağı barədə ətraflı məlumat verib, qocaman təhsil müəssisəsinin ölkəmizdə savadlı kadrların yetişməsində, daxili işlər orqanlarının hüquqşünaslarla təmin olunmasında mühüm rol oynadığını diqqətə çatdırıblar. Akademiyaya kursant qəbulu qaydaları ilə bağlı sualları cavablandıran müəllimlər orada gənclərimizin hərtərəfli inkişafı üçün yaradılan müasir şərait, zəngin kitabxanalar, xarici dil kursları, laboratoriyalar, yataqxanalar, idman və atıcılıq meydançaları, habelə asudə vaxtlarının səmərəli təşkili məqsədilə görülən işlərdən danışıblar.



Masallı rayonunun Dəfinə məktəb-liseyində keçirilən tədbirdə Rayon Polis Şöbəsinin şəxsi heyətlə iş üzrə rəis köməkçisi, polis baş leytenantı İxtiyar Talıbov dövlət başçısının müvafiq Sərəncamı ilə təsdiq olunmuş "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişafı Startegiyası"ndan irəli gələn məsələlərdən söhbət açıb. Daxili işlər orqanlarında şərəfli xidmət yolu, yeniyetmə və gənclərimizin DİN sistemində təhsil alma qaydaları barədə məktəblilərə məlumat verib, xidmətin üstünlüklərindən bəhs edib.

Polis veteranları isə cinayətkarlıqla mübarizədə qazanılmış zəngin təcrübənin gənc polis əməkdaşlar tərəfindən uğurla davam etdirilməsinə diqqət çəkiblər. DİN-in xüsusi təyinatlı təhsil müəssisələrində bacarıqlı, peşəkar polis əməkdaşlarının, hərbçi zabitlərin yetişdirildiyi və sabitliyin qorunub saxlanılmasında onların önəmli vəzifələr tutduqları gənclərin nəzərinə çatdırılıb.

*"Polis"*

*“Asayişin keşiyində” jurnalının növbəti sayı artıq ixtiyarınızdadır. Bu nömrəmizdə mövzuların müxtəlifliyinə, rəngarəngliyinə xüsusi önəm verməklə 300 nüsxə ilə çıxan dərginin gələcəkdə daha geniş oxucu kütləsi qazanması üçün kollektiv olaraq səfərbər olmuşuq.*

*İlk səhifələrimizdə Qarabağı salamlayıb böyük qayıdış üçün həmrəyliyimizi qələmə aldıq. Azərbaycan Polisinin dövlətə və xalqa olan sədaqətini, vətəndaşların ona olan inamını, DİN rəhbərliyinin gənclərə, xüsusilə Vətən müharibəsi qazilərinə göstərdiyi etimadı işıqlandırmaqla, Qarabağda və Şərqi Zəngəzurda şərəfli xidməti fəaliyyətimizə geniş yer verməklə diqqəti bir daha üzərimizə çəkmək istədik.*




*Haqqımızı qazandığımız haqq savaşımızda şəhidlərimizin, qazilərimizin keçdiyi şərəfli döyüş yolundan, strateji obyektlərin mühafizəsinin təşkilindən, “Formula-1” Bakı Qran Prisi zamanı ictimai qaydanın, təhlükəsizliyin yüksək peşəkarlıqla qorunmasından bəhs edən mövzuları oxuyub qiymətləndirməyi öhdənizə buraxırıq. Paytaxtın bir neçə Rayon Polis İdarəsinin İstintaq şöbələrinin rəisləri ilə müsahibəmizin də marağınıza səbəb olacağına inanır, nəfis tərtibatı ilə göz oxşayan mövzuları fotolarla harmoniya təşkil edən jurnalımızdan məmnun qalacağınıza şübhə etmirik.*

# Polis zabitinin Praqadan qeydləri




Avropa İttifaqının Futbol Təhlükəsizliyi üzrə Ekspertlər Qrupunun 2022-ci il 28-29 sentyabr tarixlərində Praqa şəhərində keçirilmiş növbəti görüşündə də Azərbaycan Milli Futbol Məlumat Məntəqəsinin əlaqələndirici zabiti kimi iştirak etmişəm. Artıq bir neçə ildir ki, bu tədbirlərə qatılıram.

Praqadakı növbəti tədbiri açıq elan edən Avropa İttifaqının Futbol Təhlükəsizliyi üzrə Ekspertlər Qrupunun sədri, cənab Adrian Dinka əvvəlcə Almaniyada təşkil olunması planlaşdırılan “AVRO-2024” çempionatında yığma komandaları ilə mübarizə aparacaq və futbol oyunlarına ev sahibliyi edəcək ölkələrdə görülən işlərlə bağlı 2021-ci ili əhatə edən hesabatı təqdim etdi. Hesabatla yanaşı, iştirakçı ölkələrin Milli Futbol Məlumat Məntəqələri tərəfindən ümumi məlumat bazasına daxil edilmiş məlumatlar, stadionlar, riskli azarkeşlər, əməliyyat məlumatları, nəzərdə tutulan polis nümayəndə heyətlərinin ezamı və təhlükəsizlik tədbirləri barədə prezentasiya təqdim olundu.

Sonra cənab Dinka 28.05.2022-ci il tarixdə Paris şəhərində “Liverpul” və “Real Madrid” futbol klubları arasında keçirilmiş UEFA Çempionlar Liqasının final oyunu zamanı azarkeşlər arasında baş vermiş insidentlər və polis tərəfindən təhlükəsizlik tədbirlərinin düzgün qaydada qurulmaması barədə narahatlığını ifadə edərək, Fransa Milli Futbol Məlumat Məntəqəsindən müvafiq məruzənin təqdim olunmasını istədi. Fransa Milli Futbol Məlumat Məntəqəsinin əlaqələndirici zabiti Lyusi Lubeyre baş vermiş hadisə ilə bağlı videomaterial təqdim etdi və sözügedən məsələ ilə bağlı Fransa Respublikasının Daxili İşlər Nazirliyində təqsirkar şəxslərin müəyyən edilməsi və cəzalandırılması istiqamətində istintaq işlərinin aparıldığını xüsusi vurğuladı.

Avropa İttifaqının Futbol Təhlükəsizliyi üzrə Ekspertlər Qrupunun “Terrorçuluqla mübarizə” İşçi Qrupunun üzvlərinin iştirakı ilə keçirilmiş dəyirmi masada tərəfimizdən də müvafiq zəruri məlumatlar təqdim edildi. ***Sentyabrın 13-14 tarixlərində Azərbaycan-Ermənistan sərhədində Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən törədilmiş təxribat və Azərbaycanın bir çox Avropa ölkələrində yerləşən diplomatik korpuslarının inzibati binalarına erməni əsilli şəxslər tərəfindən edilmiş hücumlar diqqətə çatdırıldı. Ötən illərdə beynəlxalq futbol yarışlarında Azərbaycanı təmsil edən “Qarabağ” futbol klubuna qarşı müxtəlif təhdidlər və təxribatların törədilməsini nəzərə alaraq, qarşıdan gələn oyunlarda müvafiq təhlükəsizlik tədbirlərinin görülməsi tələb edildi. Azərbaycan ərazisində “Dağlıq Qarabağ” ərazi vahidinin olmaması xüsusilə vurğulanaraq, Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmiş təxribat xarakterli bannerlərin və bayraqların nümayiş olunmasının qarşısının alınması barədə Yunanıstan və Fransa Milli Futbol Məlumat Məntəqələri ilə müzakirələr aparıldı.***

...Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Milli Futbol Məlumat Məntəqəsinin əlaqələndirici zabiti Paul Foley cari il ərzində futbol üzrə qadınlardan ibarət Avropa Çempionatına hazırlıq işləri, 2023-cü ildə isə İstanbul şəhərində keçirilməsi nəzərdə tutulan Futbol üzrə UEFA Çempionlar Liqasının final oyunu ilə əlaqədar görülən tədbirlər barədə isə Türkyənin Milli Futbol Məlumat Məntəqəsinin əlaqələndirici zabiti Kadir Demir prezentasiya təqdim etdilər.

İşgüzar şəraitdə davam edən tədbirdə bir çox maraq doğuran məsələlərə aydınlıq gətirildi, təkliflər qiymətləndirildi.

***DİN-in Beynəlxalq Əməkdaşlıq İdarəsinin əməkdaşı, polis mayoru Vaqif Əzizov***

# Güclülər qalib gəldi

Bu günlərdə DİN-in İdman Cəmiyyətinin təşkilatçılığı ilə mini-futbol üzrə daxili işlər orqanlarının çempionatı keçirilib. Gərgin keçən mübarizədə Əlahiddə Çevik Polis Alayının komandası birinci olub. Diplomatik Nümayəndəliklərin Mühafizəsi Üzrə Əlahiddə Polis Taboru ikinci, DİN Daxili Qoşunların hərbi qulluqçuları isə üçüncü yerdə qərarlaşıblar.




Yarışla bağlı **DİN İdman Cəmiyyətinin İdmanın təşkili şöbəsinin rəisi, polis polkovnik-leytenantı Munir Orucov** “Polis”ə bildirib ki, polis idmançıları arasında DİN DQ-nin baş çavuşu Tural Adıgözəlov (ən çox top vuran oyunçu), ƏÇPA-nın polis baş serjantı Baba Qafarov (ən yaxşı qapıçı), ƏÇPA polis baş serjantı Atalın Ağayev isə (ən yaxşı məşqçi) nominasiyasında fərqləndiklərinə görə diplomla təltif olunublar.

Qalib komandalara kubok, medal, qiymətli hədiyyələr təqdim edilib.

***Ruslan Vəliyev, polis baş leytenantı***



Masallı rayonunun Xıl kəndində Birinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalan polis əməkdaşı, Azərbaycanın Milli Qəhrəmanı Elşad Hüseynovun xatirəsinə inşa edilən abidə kompleksinin açılışı olub. Bu münasibətlə keçirilən tədbirdə rayon rəhbərliyi, hüquq mühafizə orqanlarının əməkdaşları, şəhidin ailə üzvləri, qazilər, müharibə veteranları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

# Şəhid polisin xatirəsinə...

Qeyd olunub ki, abidə kompleksi həm Elşad Hüseynova, həm də digər şəhidlərimizə göstərilən böyük ehtiramın təcəssümüdür.

Çıxışlarda onun həyat və döyüş yolunun hər bir polis əməkdaşı, eləcə də Azərbaycan gənci üçün örnək olduğu bildirilib, xatirəsinin daim ehtiramla xatırlanacağı vurğulanıb. Tədbirin sonunda məktəblilər Vətənə, şəhidlərimizə həsr olunmuş şeirlər söyləyiblər.

Qeyd edək ki, Masallı rayonunun Xıl kəndində doğulmuş həmkarımız 1981-ci ildə ordudan təxris olunduqdan sonra milis nəfəri kimi xidmətə başlayıb. Torpaqlarımıza erməni təcavüzü başlayanda o da mərd oğullarımız kimi silaha sarılaraq Vətənin müdafiəsinə qalxıb. İgid polisimiz 1992-ci ilin iyunun 15-də Fərrux kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Hüseynov Elşad Eynulla oğluna (ölümündən sonra) "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

***Məhəmməd Rzayev, polis kapitanı***

**Quba Rayon Polis Şöbəsinin** təşkilatçılığı ilə rayonun Dağlı, Alekseyevka kənd tam orta məktəblərində, eləcə də şəhər 2 nömrəli tam orta məktəbdə “Narkomaniyaya yox deyək!” mövzusunda maarifləndirmə tədbiri keçirilib.

Görüşdə narkomaniyanın dinindən, irqindən, milliyyətindən, sosial vəziyyətindən asılı olmayaraq hamı üçün eyni dərəcəli təhlükə olduğunu qeyd edilib.

Mingəçevir şəhər 7 saylı tam orta məktəbdə baş tutan narkomaniya əleyhinə maarifləndirici



# Sonu ölüm olan qaranlıq - NARKOMANİYA



tədbirdə polis əməkdaşları, pedaqoji heyət və yuxarı sinif şagirdləri iştirak ediblər.

**ŞPŞ-nin rəisi, polis polkovniki Ədalət Əliyev** görüşün əsas məqsədinin gələcəyimiz olan yeniyetmələri yad təsirlərdən, zərərli vərdişlərdən qorumaq, eləcə də onların sağlam yaşamasını təmin etməkdən ibarət olduğunu bildirib. Həmçinin, narkomaniya ilə mübarizədə birgə səylərin vacibliyi də iştirakçıların diqqətinə çatdırılıb.

Daha bir maarifləndirmə görüşü paytaxtın Nərimanov rayonundakı 200 saylı tam orta məktəbdə keçirilib. “Narkomaniya əsrin bəlasıdır!” mövzusunda çıxış edən **RPİ-nin rəisi, polis polkovniki Vaqif Müslümov** qeyd edib ki, polis narkotiklərin qanunsuz dövriyyəsinə, narkomanlığa qarşı müasir, eləcə də effektiv mübarizə üsullarından istifadə etməklə genişmiqyaslı əməliyyat-axtarış və əməliyyat-istintaq tədbirləri həyata keçirir.

Tədbirdə iştirak edən polis veteranları da gənclərlə zəngin həyat təcrübələrini bölüşüb, tövsiyələrini çatdırıblar. Bildirilib ki, narkomaniya insanı cinayətkarlığa, zorakılığa sövq edir, sosial-iqtisadi inkişafı səngidir, ailələri dağıdır.

Şuşa Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Bakı şəhəri 7 saylı tam orta məktəbdə baş tutan “Narkomaniya bəşəri fəalkətdir!” mövzusunda maarifləndirici görüşdə polis əməkdaşları narkomaniyanın genefondumuza vurduğu zərərlərdən söz açıblar. Tədbirdə o da vurğulanıb ki, gənclərimiz yüksək təhsil almalı, müasir informasiya texnologiyalarından istifadə etməyi bacarmalı, idmanla məşğul olmalı, milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda böyüməli, cəmiyyətimiz üçün sağlam fərdə çevrilməlidirlər.

**Anoloji tədbir Zərdab rayon Bıçaqçı kənd tam orta məktəbində də keçirilib.**

RPŞ-nin rəis müavini, polis polkovnik-leytenantı İkram Əhmədov narkomaniyaya düçar olmuş şəxslərin sağlam həyata qayıtmasının çox çətin olduğunu, şagirdlərə diqqətli olmağı və narkotik aludəçilərindən uzaq durmağı tövsiyə edib. Qeyd edək ki, narkomaniya ilə mübarizə çərçivəsində anoloji tədbirlər paytaxtın **Nəsimi, Nizami, Xəzər, eləcə də Yevlax, Beyləqan, Qubadlı və Cəlilabad** rayonlarındakı məktəblərdə də keçirilib.

***“Polis”***

# İDMAN UĞUR DEMƏKDİR

## Qaliblərin arasında polis də var




**Oktyabrın 7-dən 9-dək pauerliftinq üzrə açıq Azərbaycan Kuboku uğrunda yarış keçirilib.**

Çempionatda 100 kiloqram çəki dərəcələrində çıxış edən **Quba RPŞ-nin Müvəqqəti əməkdaşı, polis serjantı Məhərrəm Qəhrəmanov** (245 kiloqram) və **Gəncə ŞBPİ-nin XTB-nin polis serjantı Röyal Rəsulov** (235 kiloqram) deadlift (yerdən ağırlıq qaldırma) hərəkətində gümüş və bürünc medal qazanıblar.

Azərbaycan Kuboku uğrunda ***Bakı şəhər BPİ Dövlət Yol Polisi İdarəsinə bilavasitə tabe olan YPX Alayının komandiri, deadlifting üzrə 3 qat dünya çempionu, polis polkovniki Raif Süleymanovun*** yetirməsi Ziyad Cabarov da gücünü sınayıb.



O, 47 yaşında 90 kiloqram çəki dərəcəsində ştanqla oturub-durma hərəkətində 230, uzanıqlı vəziyyətdə 167.5, yerdən qaldırma isə 300 kiloqram nəticə göstərək fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb.

Qeyd edək ki, yollarda təhlükəsizliyin qorunması ilə yanaşı, məşqçilik fəaliyyəti ilə də məşğul olan və idmanın bu növündə uğur qazanmaq əzmiylə meydana çıxan gənclərin yetişməsində böyük əmək sərf edən polis polkovniki Raif Süleymanovun yetirməsi Z. Cabarov 7 dəfə respublika, 1 dəfə WPRF üzrə dünya çempionu olub.

*V.Ruslan*

# Daxili işlər orqanları əməkdaşlarının nəzərinə!



Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 1, 2, 3 və 4 saylı uşaq bağçalarına daxili işlər orqanlarında xidmət edən əməkdaşların uşaqlarının qəbulu həyata keçirilir.

Ətraflı məlumat üçün DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinə müraciət edə bilərsiniz.

**Əlaqə nömrələri: (012) 562-38-40 və 408-81-25**

**Bağçalar: 1 saylı-(012) 594-14-49, 2 saylı-493-05-68, 3 saylı-440-82-35, 4 saylı-563-55-80**

# "İZ"LƏR UZAĞA GETMİR...

## Peşəkar yanaşma ilə nəticə əldə olunur



Paşa Əliyev həmyerlisi, Siyəzən rayon sakini Orxan Hüseynovun mobil telefonunu danışmaq adı ilə aldıqdan sonra Moskva prospektində yerləşən "Kontakt Home"-un qarşısından yoxa çıxıb. Aldadıldığını başa düşən O.Hüseynov ərizə ilə Nəsimi RPİ 19-cu Polis Şöbəsinə müraciət edib.

Şikayətçini qəbul edən **rəis müavini, polis polkovnik-leytenantı Nizami Hüseynov** ona telefonunun tezliklə tapılacağını və qaytarılacağını bildirib.

Həyata keçirilən əməliyyat tədbirləri zamanı məlum olub ki, "Redmi Note 9S" markalı telefon İskəndər Camalov tərəfindən internet seqmetində satış saytlarının birindən alınıb. Telefonu Şəki şəhər sakini Əziz Cəbrayılov istifadə edir.

Həyata keçirilmiş tədbirlərlə qısa zaman kəsiyində zərərçəkmiş O.Hüsenovun dəyəri 500 manat olan telefonu tapılıb və özünə qaytarılıb.

◆◆◆

Nəsimi RPİ 19-cu Polis Şöbəsinin əməkdaşları daha iki faktın üstünü "isti izlər"lə açıblar. Belə ki, əvvəllər oxşar əməllərə görə məhkumluq həyatı yaşamış Xocalı rayon sakini Eldar Zeynalov və Şabran rayon sakini Tahib Əmiraslanov etdikləri oğurluq əməlinə görə saxlanılıblar.

Məlum olub ki, gecə saatlarında ətrafda kimsənin olmamasından istifadə edərək onlar "Humay" və "Al Market"lərin qapılarını qırıb ora daxil olublar. Marketlərdəki "E-manat" onlayn ödəniş sistemi aparatlarından ümumilikdə 11 min manat oğrulayıblar.

Cinayət əməlinə aydınlıq gətirən rəis müavini, polis polkovnik-leytenantı Nizami Hüseynov "Polis"ə bildirib ki, aparatların qara qutusu tapılaraq ekspertizaya göndərilib. Götürülən əl-barmaq izləri və kamera görüntüləri isə oğruları ələ verib.

Rəis müavini N.Hüseynov "Al market"dən bundan öncə də oğurluq edildiyini diqqətə çatdırıb.

Araşdırmalar zamanı o da məlum olub ki, həmin şəxslər oxşar hadisəni Abşeron rayon ərazisində də törədiblər.

*R.Vəliyev*

# Qəzaya düşən ailənin xilaskarları

**Qaradağ rayonu ərazisində xidmət aparan Əlahiddə Çevik Polis Alayının 10-cu Patrul Bölüyünün əməkdaşları baş vermiş yol-nəqliyyat hadisəsində ata və üç azyaşlının həyatını xilas ediblər.**

Hadisə Bakı-Qazax yolunun 14-cü kilometrliyində - "körpünün üstü" deyilən yerdə baş verib. Belə ki, Yasamal rayonunda yaşadığı ünvandan "Mitsubishi L200" markalı avtomobillə rayon istiqamətində hərəkət edən sürücünün halı qəfil pisləşib və o, sükan arxasında huşunu itirib. Üç azyaşlının olduğu avtomobil adıçəkilən yerdə yol kənarındakı dəmir dirəklərə çırpılıb. Xoşbəxtlikdən ərazidə xidmət aparan ƏÇPA-nın 10-cu Patrul Bölüyünün əməkdaşları – polis nəfərləri, polis serjantları Elnur Təhməzli, Elnur Sədali, kiçik serjantlar Asim Bəbirli və Nizami Ədilov yaxınlıqda olub və dərhal onun köməyinə çatıblar. Onlar ata və üç azyaşlını avtomobildən çıxararaq ilk tibbi yardım göstərib, psixoloji dəstək olublar. Polis əməkdaşları hadisə barədə aidiyyəti üzrə rəhbərliyə məruzə etdikdən sonra qəzaya düşən sürücünün həyat yoldaşına




məlumat veriblər və xəsarət alanları xidməti avtomobillə xəstəxanaya aparıblar.

Yeri gəlmişkən onu da qeyd edək ki, kiçik serjant N.Ədilov Vətən müharibəsi qazisidir.

*Teymur Əlizadə,*
*polis mayoru*

# BİZƏ YAZIRLAR...

Bakı şəhər sakini Yaşar Əsgərov məktubunda Suraxanı Rayon Polis İdarəsinin əməkdaşlarının narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınmasında qətiyyət nümayiş etdirdiklərinə görə təşəkkürünü bildirir.

◆◆◆

"28 may metrostansiyasında pulqabımı naməlum şəraitdə itirmişdim. Fərqinə vardığım an Polis Şöbəsinə üz tutdum. Məni səmimi qəbul edib dinlədilər. Bir-neçə saatdan sonra isə pulqabımın tapılması ilə bağlı mənə zəng etdilər. Polis əməkdaşlarının belə çevik və operativliyi məndə qürur hissi oyatdı". Bu məktubu bizə sosial şəbəkə izləyicisi Hüseyn Sadıqlı ünvanlayıb.

◆◆◆

Sumqayıt şəhər sakini Əlişan Qurbanov isə ünvanladığı təşəkkür məktubunda etdiyi müraciətə operativ baxılmasına və probleminin tez bir zamanda aradan qaldırılmasında göstərilən köməkliyə görə Binəqədi RPİ-nin 5-ci Polis Bölməsinin şəxsi heyətinə minnətdarlığını bildirir.

◆◆◆

Sosial şəbəkə izləyicisi Raksana Vəliyeva ünvanladığı məktubda ona qarşı hədə-qorxu gələn şəxs barəsində etdiyi müraciətə operativ baxılmasına, səmimi qəbula və problemin tez bir zamanda aradan qaldırılmasında göstərilən köməkliyə görə Binəqədi RPİ-nin rəhbərliyinə təşəkkürünü ifadə edir.

◆◆◆

Xətai RPİ-nin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinə müraciət edən Bakı şəhər sakini Gülnarə Hüseynova sevincini bizimlə belə paylaşıb: "Artıq oğlum sözümdən çıxmır. Dərslərinə davamiyyəti yerindədir. Hətta müəllimləri də ondan razılıq edirlər. Allah sizdən razı olsun. Oğlumu itirmək təhlükəsilə üz-üzə qalmışdım. Siz mənə ikinci həyat bəxş etdiniz. Mənə köməklik göstərən Azərbaycan Polisinə nə qədər təşəkkür etsəm azdır".

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# Silah-sursat aşkar edilib



**Füzuli Rayon Polis Şöbəsinin** əməkdaşlarının rayon ərazisində keçirdikləri növbəti tədbirlər zamanı müxtəlif silah-sursat aşkar edirlər. Tapılan 6 avtomat, 1 qumbaraatan, 1 pulemyot, 12 əl qumbarası, 3853 müxtəlif çaplı patronlar və digər döyüş sursatları aidiyyəti üzrə təhvil verilib.



◆◆◆

**Laçın Rayon Polis Şöbəsinin** əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində Zerti kəndi ərazisində 1 ədəd tank mərmisi, 2 ədəd əl qumbarası və 379 ədəd patron aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.



*Aslan Qiyaslı,*
*polis kapitanı*

# STATİSTİKA

## Kriminal icmal

- Oktyabrın 5-dən 12-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan 403, əvvəlki dövrlərdən bağlı qalan 61 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 343, o cümlədən borclu şəxs qismində axtarışda olan 258 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 15 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 17 nəfər ölüb, 14 nəfər isə xəsarət alıb.
- Narkotiklərlə əlaqəli 196, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 20 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik